# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA İPƏKÇİLİYİN BƏRPASI VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

**Qafar Məmmədov[1], Qüdrət Bəkirov[2]**

[1] *Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, mammadovqafar61@gmail.com*

[2]*AMEA-nın Şəki Regional Elmi Mərkəzi*

Baramaçılıq və ipəkçilik Azərbaycanın ən qədim, ənənəvi və gəlirli sahələrindən biridir. Burada ipəkçiliyin 17 əsrlik tarixi var. Azəri ipəyi Asiyanı Avropa ilə birləşdirən "Böyük İpək Yolu" ilə Avropaya, oradan da digər dünya ölkələrinə daşınmış və xalqlar arasında iqtisadi, siyasi və elmi əlaqələrin inkişafında böyük rol oynamışdır.

1991-ci ildə respublikada rekord miqdarda – 5921 ton barama istehsal edilmişdir. Cənab Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci il noyabrın 27-də "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. 2025-ci ildə ölkədə barama istehsalının 6 min tona çatdırılması nəzərdə tutulur.

Məlum olduğu kimi, Sovetlər dövründə Mil-Qarabaq iqtisadi zonasının Ağdam, Fizuli, Zəngilan, Cəbrail, Qubadlı, keçmiş DQMV-nin Əsgəran, Mardakert, Martuni və Hadrud rayonlarında baramaçılıqla məşgul olunmuşdur. Belə ki, Ağdam, Fizuli, Zəngilan, Cəbrail, Qubadlı rayonları ildə 1100 tona yaxın barama istehsal edirdi. Ağdam şəhərində qren (barama toxumu) zavodu vardı, istehsal gücü ildə 300 kq idi: Ağdamda 2, Qubadlıda 2, Zəngilanda 1, Fizulidə 3, Cəbraildə 3 rayon baş baramaqurutma məntəqəsi var idi. Onların istehsal gücü müvafiq olaraq 380, 100, 95, 255 və 260 ton idi. 1960-cı ildə yaradılmış Ağdam meyvə tingliyi təsərrüfatı hər il rayonlara 100 min ədəd çəkil (tut) tingi satırdı.

Sovet dövründə Şuşa rayonunda ipək kombinatı sexi, Xankəndində isə Qarabağ idək kombinatı fəaliyyət göstərirdi. 1977-ci ilin statistik məlumatına görə, keçmiş DQMV-də 129 ton barama, 142 ton xam ipək, 15479 min $m^2$ ipək parça istehsal olunmuşdur.

İşğaldan azad olunmuş rayonlarda ipəkçiliyin bərpası və inkişafı istiqamətində dövlət səviyyəsində təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir. İlkin olaraq ipəkçi mütəxəssislər tərəfindən monitorinq aparılmalıdır. İpəkçiliyin möhkəm, dayanıqlı yem bazasını yapatmaq üçün çəkil bağlarının salınmasına təcili başlanılmalıdır. Tikiləcək "ağıllı kümxanaların" çəkil plantasiyalarının yanında olması məqsədəuyğundur. Gənc nəsili ipəkçiliyə cəlb etmək ücün ictimai kümxanaların tikilməsinə və ictimai yemləmələrin aparılmasına üstünlük verilməlidir. Belə yemləmələrdə bir təcrübəli kümçü öz sənətinin sirlərini eyni vaxtda bir şagirdə öyrədə bilir. Tədricən əhali məskunlaşdıqca ipəkçiliyin diğər infrastrukturları bərpa olunmalıdır. Sahə üzrə mütəxəssis hazırlamaq üçün texniki-peşə litseylərində, kolleclərdə və univerisitetlərdə uyğun ixtisaslar üzrə dövlət sifarişi əsasında qəbul həyata keçirilməsi günün ən zəruri məsələlərindəndir.

İşğaldan azad olunan ərazilərdə baramaçılığın və ipəkçiliyin bərpası və inkişafı üçün yeni infrastrukturun yaradilması bu ərazilərə köçürüləcək minlərlə insanın işlə təmin olunmasına, maddi vəziyyətinin yaxşılaşmasına, regionların sosial-iqtisadi inkişafına səbəb olacaqdır.